**Zahidə RZAYEVA**
***"Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının müəllimi***

**Safura HACIYEVA**
***"Kitabxana fondu və kataloqları" laboratoriyasının müdiri***

# MÜASİR DÜNYADA KİTABXANA-İNFORMASİYA SFERASININ İNKİŞAF MEYİLLƏRİ

***Açar sözlər:*** Azərbaycan Respublikası, kitabxana-informasiya, inkişaf meyilləri

***Ключевое слова:*** Азербайджанская Республика, Библиотечно-информационное, тенденции развития

***Key words:*** Republic of Azerbaijan, Library-İnformation, development trends

*Məqalədə İnformasiyalaşdırılmış cəmiyyət şəraitində Azərbaycanda kitabxana-informasiya sferasının vəziyyəti çərh olunmuşdur.Həmçinin informasiya fəaliyyətində kitabxanaşünaslıq metodlarının əhəmiyyəti də göstərilmişdir.*

Giriş:Bəşəriyyətin nail olduğu sosial-iqtisadi və mədəni inkişafının genezisinə nəzər saldıqda görə bilərik ki, bu naliyyətlər qısa dövrdə əldə olunmamışdır. Bu inkişafı şərti olaraq əsas etibarilə dörd mühüm mərhələyə bölmək olar.Bu mərhələlərin birindən digərinə keçid, heç şübhəsiz, ayrı-ayrı cəmiyyətlərdə spesifik kəmiyyət və keyfiyyət dəyişiklikləri effektləri yaratmaqla yanaşı, yeni dəyərlərin və ictimai münasibətlərin formalaşmasına səbəb olmuşdur. Hazırkı dövrdə cəmiyyətdə informasiya və biliklərin rolu, eyni zamanda qeyd olunan sahələrdə məlumat daşıyıcılarının sürətlə dəyişməsidaha cox əhəmiyyət kəsb edir. Bu dəyişiklik özünü bilavasitə aşağıdakı istiqamətlərdə daha qabarıq şəkildə göstərməkdədir:

Yeni texnologiyalarda formal biliklərin rolunun artmasında;

Elmi-tədqiqat işləri ilə istehsalın əlaqəsinin artmasında;

Məhsulların sürətli mənəvi aşınmasında;

Təhsilin, ixtisaslaşmanın, fasiləsiz tədrisin əhəmiyyətinin yüksəldilməsində;

Biliklərə qoyulan investisiyanın artmasında;

İnformasiyanın idarəolunmasına qoyulan investisiya hesabına əlavə dəyərin yaradılmasında;

Səmərəliliyin rəqabətliliyinin artırılmasında;

İntensiv qloballaşmada və s.

İnformasiya cəmiyyətinə keçid proseslərini şərtləndirən və onun əsas elementlərindən biri olan spesifik dövlət proqramları, bu proqramların mahiyyəti, vəzifə və funksiyalarının sistemlitətbiqində özü əks etdirməkdədir. Çağdaş dünyada ictimai həyatın bütün sferalarının mürəkkəbləşdiyi və bir o qədərdə mobilləşdiyi bir şəraitdə, ona adekvat fəaliyyət strategiya və taktikalarının tətbiqini aktuallaşdırmaqdadır.

Dünya təcrübəsinə nəzər saldıqda görə bilərik ki, inkişaf etmiş ölkələr bu proseslərə adekvatlığı hələ post-sənaye dövrünün tələbləri əsnasında formalaşdırmış və bu güntəkmil bir vəziyyətə gətirib çıxarmışlar.

"İnformasiya cəmiyyəti"nin Azərbaycan modelinin qurulmasını hədəfləyən respublikamızda prosesə əsasən çox şaxəli fəaliyyətləri özündə cəmləşdirən strategiya reallaşdırılmaqdadır. Həmin strategiyanın önəmli istiqamətlərindən biri də informasiya cəmiyyətinin mühüm atributlarından biri olan milli kitabxana sistemidir. Bu baxımdan məqalə bütövlükdə ölkəmizin informasiya cəmiyyətinə keçid prosesində "Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın missiyasına və onun əsas məqamlarının tədqiqinə həsr edilmişdir.

Hazırda sonuncu mərhələ kimi qiymətləndirilən informasiya cəmiyyəti özündə bir sıra spesifik xüsusiyyətləri cəmləşdirmişdir ki, hansı ki, onlarda bilavasitə aşağıdakılardan ibarətdir:

1.İnformasiyanı əsas istehsal amili kimi şərtləndirir;
2.İctimai münasibətlərin bütün sferalarında mobilliyi şərtləndirir;
3.Yeni ictimai münasibətlərin meydana gəlməsini şərtləndirir;
4.İnformasiyanın beynəlxalq hərəkəti daha da sürətlənir;
5.Qlobal konteksdə informasiya özü ilə birlikdə dezinformasiyaların həcminiartırır;
6.Müasir texnologiyaların daha dinamik inkişafını şərtləndirir;
7.Ayrı-ayrı cəmiyyətlərdə təhsil və maarifləndirmə siyasətlərinin daha da modernləşdirilməsini aktuallaşdırır və s.

Ayrı-ayrı müstəqil dövlətlərin dünya birliyində özünəməxsus mövqe tutması və milli inkişafı təmin edə bilməsi müasir çağırışlara xüsusi əhəmiyyət verməyi tələb edir. Müstəqillik əldə etdikdən sonra dünya birliyinə sürətli inteqrasiyanı hədəfləyən Azərbaycan qlobal çağırışlara mobil adekvatlığı təmin etməlidir. Respublikamızda informasiya cəmiyyətinə keçid ümummilli inkişaf konsepsiyasının əsas vektorial istiqamətləri ilə də bilavasitə çulğalaşmaqdadır. Belə ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Qara qızılı insan qızılına çevirmək" və yaxud "biliklərə əsaslanan inkişaf modelini qurmaq" yeni oyun qaydalarına uyğun strategiyanı reallaşdırmaq kimi ciddi prioritetləri aktuallaşdırmaqdadır. Həmin tələblərə uyğun strategiyanın əsas halqalarından biri də informasiya cəmiyyətinin əsas subyektlərindən biri olan milli kitabxanaçılıq sisteminin müasir tələblərə uyğunlaşdırılması və nəticə



etibarilə onların əsas aparıcı qüvvə qismində çıxış etməsini təmin etməkdir. Ümumiyyətlə, informasiya cəmiyyətinə keçid özlüyündə kifayət qədər sistemli institusional strukturun formalaşmasını tələb etməkdədir. Sözügedən institusional strukturlar isə öz növbəsində bir-biri iləqarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq şəraitində spesifik beynəlxalq, regional və milli dövlət proqramlarının reallaşdırılmasına məsuldurlar.

Problemə məhz bu kontekstdən yanaşdıqda ölkə rəhbərinin 6 oktyabr 2008-ci il 3072 nömrəli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"xüsusi əhəmiyyət kəsb etməkdədir. Bu proqramla yanaşı 1998-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu da bu sahədə görülən işlərə nümunə kimi göstərilə bilər. Qeyd etdiyimiz kimi, informasiya cəmiyyətinə inteqrasiya çoxxətli bir struktura malik olduğu üçün milli kitabxanaçılıq sisteminin bu sahədəki mövqeyi də kifayət qədər strateji əhəmiyyət kəsb etməkdədir. Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir . Məhz bu istiqamətdə reallaşdırılan məqsədyönlü tədbirlər kompleksinin əsas hədəfi Dövlət Proqramının əsas kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir. Çünki informasiya cəmiyyətinin əsas prinsipial fərqlərindən biri də insanların maarifləndirilməsi və yaxud əgər belə demək mümkündürsə, təhsillərində yeni bir mərhələyə-informamasiya təhsil mərhələsinə keçidi də birləşdirməkdədir. Bu isə ayrı-ayrı milli dövlətlərdə kitabxana infrastrukturlarında köklü dəyişikliklərə əsaslanmaqdadır. Respublikamızda bu istiqamətdə həyata keçirilməsi prioritet xarakter kəsb edən aşağıdakı tədbirlər hədəf kimi seçilmişdir ki, onlar da bilavasitə aşağıdakılardan ibarətdir :

- informasiya cəmiyyəti quruculuğu şəraitində beynəlxalq standartlar, normativ hüquqi aktlar, milli informasiyalaşdırma siyasəti əsasında ölkədə fəaliyyət göstərən kitabxanaların modernləşdirilməsi;

- köklü islahatların aparılması, kitabxana-informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi vətətbiqi, idarələrarası koordinasiyanın təşkili;

- elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi;

- elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

- kompüterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi və s.

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının icrasından gözlənilən əsas nəticələr kimi isə bilavasitə aşağıdakı məqamları tezisləşdirə bilərik :

- "Biliklər cəmiyyətinin Azərbaycan modeli" konsepsiyasının hazırlanması;

- Kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi, kompüterləşdirilmiş kitabxana infrastrukturunun, elektron informasiya resurslarının və müxtəlif sahələr üzrə elektron kitabxanaların yaradılması;

- Dünya informasiya sistemlərində Azərbaycan kitabxana resurslarının təbliği və beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi;

- Azərbaycan Respublikasında fəaliyyət göstərən kitabxanaların fondlarının ənənəvi və müasir informasiya daşıyıcıları ilə tam komplektləşdirilmə mexanizminin yaradılması və bu işin davamlı şəkildə inkişaf etdirilməsi;

- Azərbaycan kitabxanalarının dünyanın ən böyük kitabxanalarının məlumat bazalarına daxil olmasının və onların resurslarından istifadənin təmin edilməsi;

- Azərbaycan kitabxanalarının informasiya cəmiyyəti və vətəndaş cəmiyyəti institutları ilə birgə əməkdaşlığının həyata keçirilməsi və s.

Müasir dünyada kitabxana-informasiya sferasının inkişaf meyllərindən biri də, "regional informasiya mühiti"nin mövcudluğu, sözügedən sferada rəqabətin milli infrastrukturlar arasından daha çox regional kontekstdə getməsi ilə müşahidə edilməkdədir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın əsas məqsədlərindən biri də milli kitabxana-informasiya sisteminin beynəlxalq rəqabət qabiliyyətliliyini təmin etməyə hesablanmışdır.

Prezident İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxana Direktorlarının Konfransı və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubunda da qeyd etdiyi kimi, "Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşdirilməsi proseslərinə öz layiqli töhfələrini



verməkdədir"və bu da öz növbəsində sözügedən subyektlərin qarşılarında ciddi bir məsuliyyət qoymuşdur. İnformasiya ehtiyatlarının vacibliyi və cəmiyyətdə oynadığı rol respublikamızda lazımınca qiymətləndirilir və bu sahənin hüquqi tənzimlənməsi üçün konkret işlər görülür. Qlobal münasibətlər sisteminin dərinləşdiyi bir dövrdə dünyanın qabaqcıl elmi-texniki kitabxanalarında elektron kataloqların işlənməsi, istehlakçılara (oxuculara) adekvat elektron xidmətin təşkili sahəsində bir sıra innovativ strategiyalar tətbiq edilərək informasiya resurslarına daha operativ və effektiv çıxışın təmini sahəsində daha ciddi nailiyyətlər əldə edilmişdir. Bu da öz növbəsində elmi-texniki kitabxanalarda avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinin tətbiqində çox çeşidliliyə gətirib çıxarmışdır. Bu sahədə tətbiq edilən İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sistemi Müstəqil Dövlətlər Birliyi məkanında Elmi-Texniki və Kütləvi Kitabxanalar tərəfindəndaha geniş tətbiq edilən ilklərdən biri kimi daha ciddi əhəmiyyətə malik olsa da, digər alternativlər kimi MİLLENİUM, VTLS, FOLLET, ALEPH və s. tətbiqi də mühüm əhəmiyyət kəsb etməkdədir.

Qeyd etdiyimiz tendensiyalarla yanaşı bu gün elmi kitabxanalarda innovasiyaların tətbiqinin təkcə ayrı-ayrı milli kitabxanalar vasitəsilə deyil, transmilli və həmçinin çoxmilli korporasiyalar və digər iri biznes strukturları tərəfindən də reallaşdırıldığını müşahidə edə bilərik. Bu gün informasiya-kommunikasiya texnologiyaları sferasında fəaliyyət göstərən Microsoft və Apple kimi texnologiya şirkətlərinin yaratdıqları e-kitabxanalar və virtual məkanda müxtəlif konfiqurasiyalara malik innovativ axtarış sistemlərinin müasir planşetlərə inteqrasiyası ənənəvi kitabxanaçılıq dairələri ilə sözügedən biznes dairələri arasında rəqabətin daha da dərinləşməsinə səbəb olacaqdır .

Texnoloji proqresin yaratdığı müxtəlif avadanlıqlar ilə e-book daha sürətli trendlər qət etmiş və müasir texnologiyaların ənənəvi kitabxanaçılıq infrastrukturuna inteqrasiyasını labüdləşdirmişdir. Elə bu baxımdan da milli kitabxanaçılıqda daha mütərəqqi informasiya axtarış sistemlərinin tətbiqi olduqca ciddi əhəmiyyət kəsb etməklə yanaşı, sözügedən sferanın elmi dairələr tərəfindən daim tədqiqinin aktuallığı ilə xarakterizə edilməkdədir. İnformasiya nəşrləri kartotekası aşağıdakı növ informasiya nəşrlərini əks etdirir: informasiya vərəqələri, tematik seçmələr, problem xarakterli icmallar, referativ məcmuələr, faktoqrafik kartoteka dar sahəvi istiqamətlər üzrə maşın və qurğuların çertyojlarını, texniki-iqtisadi xarakteristikasını, predmetlərin (istehlak məhsullarının) fiziki, kimyəvi vəbioloji xassələrini, statistik və xronoloji məlumatları və s. konkret informasiyaları əks etdirir. Kartoteka elmi kitabxanaların xidmət etdiyi təşkilatın baş, əsas profilinə görə tərtib edilir. Kartotekada materiallar predmetin adına görə əlifba sırasında düzülür. Faktoqrafik kartotekadakı materiallar eyni zamanda ilkin sənəd funksiyasını yerinə yetirir.

Ünvan kartotekası elmi kitabxanaların xidmət etdiyi təşkilatın profilinə uyğun respublikada, MDB ölkələrində və mümkün hallarda uzaq xarici ölkələrdə mövcud olan müəssisə və idarələrin adları, ünvanları, əsas profil istiqamətləri, elektron poçt və faks ünvanları, rəhbərinin soyadı və adı göstərilir.

Soraq-axtarış aparatının vəhdətini təmin etmək məqsədilə müntəzəm olaraq isnad və əks isnad sistemindən istifadə etmək, kataloq-kartotekaları redaktə etmək və onların pasportunu hazırlayıb müntəzəm olaraq aparmaq lazımdır. Pasport hər bir kataloq, yaxud kartoteka üçün tərtib edilməlidir. Pasportda kitabxananın əlaqədar bölməsində olan faktiki məlumatlar əsas götürülməlidir. Əgər belə məlumatlar yoxdursa, kataloq və kartotekalar təhlil edilir və lazımi məlumat alınır. Bütün məlumatlar pasportda ixtisar edilmədən, tam formada yazılır.

Məlumdur ki, dünyanın bir çox ölkələrində artıq xeyli vaxtdır ki, OPAC (on-layn ictimai müyəssər kataloqlaşdırma) metodu tətbiq edilir. OPAC milli, bir sıra hallarda isə beynəlxalq sahədə toplu elektron kataloqların yaradılması üzrə səyləri birləşdirməyə, az bir zamanda böyük miqdarda sənəd informasiya ehtiyatlarını elektron biblioqrafik mənbələrdə əks etdirməyə imkan verir. Azərbaycanda hamının üzünə açıq olan milli səviyyəli OPAC yaradılarsa, bu, bütün elm və fəaliyyət sahələrinin kitabxana-informasiya təminatında keyfiyyətcə yeni bir mərhələ olar. OPAC-ın yaradılması mütəxəssislərin informasiya tələbatına müvafiq olan sənədləri nəinki öz kitabxanalarının fondunda, eləcə də digər kitabxanaların fondundaaxtarıb tapmağa imkan verə bilər.

Təbii ki, bunun üçün bir sıra təşkilati, texniki, metodik və maliyyə məsələləri həll edilməlidir. Ona görə də Azərbaycanda sənədlərin elektron biblioqrafik təsviri üzrə mükəmməl standart tərtib edilməli, onun tətbiqi və təbliği üçün tədbirlər həyata keçirilməli, elmi kitabxanalarvahid informasiya kommunikasiya şəbəkəsinə qoşulmalı, onlar lazımi avadanlıq və proqram təminatı ilə təchiz edilməlidirlər.

Bu məqsədlə Azərbaycanda bütün elmi və texniki kitabxanaların əlaqədar mütəxəssisləri xüsusi kurs keçərək bu texnologiyaların tətbiq edilməsini mənimsəməlidirlər. Eyni zamanda istifadəçilərə elektron biblioqrafik resurslardan istifadə üsulları öyrədilməlidir.

Sonrakı mərhələdə tədricən respublikanın elmi müəssisələrində eləcə dəM.F.Axundov adına Azərbaycan Milli Kitabxanasından, Azərbaycan MEA MEK-dan və Respublika Elmi-Texniki Kitabxanasından həmin sistemə giriş imkanı yaradılmalıdır. Bu işlə paralel olaraq Azərbaycanda nəşr edilmiş kitablar, dərc edilmiş məqalələr, müdafiə edilmiş dissertasiyaların elektron biblioqrafik təsviri yaradılaraq həmin sistemdə yerləşdirilməli, bununla da ölkəmizdə mütəxəssislərin informasiya təminatı sahəsində keyfiyyətlitəməl yaradılmalıdır.



## Ə D Ə B İ Y Y A T


1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 6 oktyabr 2008-ci il // "Azərbaycan" qəz., 2008, 6 oktyabr.
2. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal (Bakı Universiteti Nəşriyyatı), 2008, №2, s.7-30.
3. AzərbaycanMərkəzi Dövlət Kitabxanası.B., 1928, s.3-5.
4. Abbasova A.N. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişafı və təkmilləşdirilməsi: 1959-1985-ci illər. Tarix elm. nam....dis. B., 1990, 185 s.
5. Aslan K. Azərbaycanda təhsil sisteminə kitabxana-informasiya xidməti: Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, 130 s.
6. Aslan K. Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010, 448 s.
7. Aslan K. İnformasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal (Bakı Universiteti Nəşriyyatı), 2010, №3, s.15-25.
8. Kazımov R. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının vəziyyəti və inkişafı məsələləri. B., 1965, 74 s.
9. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal (Bakı Universiteti Nəşriyyatı), 1999, №3, s.3-16.


**З.Рзаева, С.Гаджыева**

## ТЕНДЕНЦИЯ РАЗВИТИИ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ НА СОВРЕМЕННОМ МИРЕ

### Р Е З Ю М Е

В статье в контексте информационного общества в Азербайджане и отдельных странах мира были проанализированы направлениях развитии библиотеки и информационной деятельности на основе современных методов библиотековедения

**Z.Rzayeva, S.Hajiyeva**

## DEVELOPMENT TRENDS OFLİBRARY AND İNFORMATİONSPHERE İN THE MODERN WORLD

In this article have been analyzed development trends of library and information activities of Azerbaijan and separate countries in modern information society on the basis of modern methods of library science.